# “PAŞA Həyat Sığorta” ASC-də

# DİVİDEND SİYASƏTİ

## 1. Ümumi müddəalar

1.1. "PAŞA Həyat Sığorta" ASC-nin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) dividendlərin hesablanması və ödənilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu və digər normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

1.2. Dividend Cəmiyyətin xalis mənfəətinin səhmdarlar arasında onların sahib olduqları səhmlərin sayına mütənasib surətdə bölüşdürülməsi üçün nəzərdə tutulan hissəsidir. Xalis mənfəət Cəmiyyətin maliyyə hesabatlarına əsasən müəyyən edilən və vergitutmadan sonra Cəmiyyətin sərəncamında qalan gəlirdir.

1.3. Xalis mənfəətin Cəmiyyətin maliyyə ili üzrə bölüşdürülməsi Səhmdarların Ümumi Yığıncağının qərarı ilə qəbul edilir.

1.4. Cəmiyyət Nizamnamədə müəyyən edilməsindən asılı olaraq, dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Cəmiyyətin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır.

1.5. Dividendlər və onların ödənilməsi qaydası haqqında qərar Cəmiyyətin Direktorlar Şurasının təklifi ilə Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilir.

1.6. Dividendlərin ödənilməsinə dair qərar verilməsi, Cəmiyyətın öhdəliyi deyil, hüququdur. Əgər Cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, Cəmiyyət dividendləri elan edə və ödəyə bilməz.

1.7. Elan edilmiş dividendlərin səhmdarlara ödənilməsi Cəmiyyətın öhdəliyidir. Cəmiyyət bu öhdəliyinin icra edilməməsinə görə Azərbaycan Respublikasının Qanunvriciliyinə əsasən səhmdarlar qarşısında məsuliyyət daşıyır.

1.8. Əgər Cəmiyyət tərəfindən səhmdarlara dividendlərin ödənilməsi ilə əlaqədar hər hansı bir problem yaranarsa və həmin problemin həlli Azərbaycan Respublikası Mülki Məcəlləsində nəzərdə tutulmayıbsa, belə problemlər səhmdarların maraqları nəzərə alınmaqla həll edilməlidir.

## 2. Cəmiyyətin dividend siyasətinin prinsipləri

2.1. Cəmiyyətin dividend siyasəti aşağıdakı prinsiplərə əsaslanır:

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş normalara Cəmiyyət və onun səhmdarları tərəfindən ciddi şəkildə riayət edilməsi;
- Cəmiyyətın gəlirliliyinin yüksəldilməsi və cəlbediciliyinin artırılması;
- Dividendlərin həcminin müəyyən edilməsinin və ödənilməsinin aydın və ədalətli mexanizminin qurulması;
- Cəmiyyət və onun səhmdarlarının maraqlarının qarşılıqlı uyğunluğu;
- Korporativ idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə dividend siyasətinin daimi yenilənməsi.

## 3. Dividend siyasətinin mahiyyəti

3.1. Cəmiyyət bu Siyasət üzrə fəaliyyət göstərərkən aşağıda qeyd edilənləri rəhbər tutur:

**ədalətlilik** – *dividendlərin məbləği, onun verilmə qaydaları haqda məlumatın əldə edilməsi üçün bütün səhmdarların bərabər hüquqla təmin edilməsi;*

**şəffaflıq** – *dividend siyasətinin həyata keçirilməsində, habelə dividendlərin məbləği və ödənilməsi qərarının qəbul edilməsində iştirak edən tərəflərin məsuliyyəti və öhdəlikləri haqqında informasiyanın aydınlaşdırılması və müəyyən edilməsi;*
**vaxtlı vaxtında** – *dividend ödənişinin həyata keçirilməsində müvəqqəti hədlərin müəyyən olunması;*
**ardıcıllıq** – *dividend siyasətinin prosedur və prinsiplərinin mütləq qaydada icrası;*
**sabitlik** – *sabit dividend ödənişləri etmək təşəbbüsü.*

## 4. Yekun müddəalar

4.1. Bu Siyasət Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağının qərarı ilə təsdiq edildikdən sonra qüvvəyə minir.
4.2. Bu Siyasətin hər hansı müddəası ilə Azərbaycan Respublikası qanunvericiliyi arasında uyğunsuzluq olduqda, həmin müddəa qüvvədən düşmüş hesab edilir.
4.3. Bu Siyasətə Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağının qərarı ilə əlavə və dəyişikliklər edilə bilər.